# İspaniya Deputatlar Konqresinin spikeri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib

**Ölkəmizdə rəsmi səfərdə olan İspaniya Krallığı Deputatlar Konqresinin Sədri Fransina Armenqol Sosias yanvarın 23-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində qonaq Bakıda Zəfər parkını ziyarət edərək Zəfər abidəsi önünə əklil qoyub, Vətən müharibəsində həlak olanların xatirəsini ehtiramla anıb. Sonra qonaq bu ərazidə yaradılan Zəfər muzeyi ilə tanış olub. İspaniya Krallığı Deputatlar Konqresinin Sədrinə məlumat verilib ki, muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Ekspozisiya zallarını gəzən ispaniyalı spiker münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları əks etdirən faktlarla, foto və videomateriallarla, interaktiv nümayişlərlə və digər eksponatlarla tanış olub.






Ziyarət zamanı qonağı Milli Məclisin İspaniya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Sevil Mikayılova, Azərbaycanın İspaniyadakı səfiri Ramiz Həsənov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

Azərbaycan. - 2026.- 24 yanvar (№14).- S.4.